# İlham ƏLİYEV:

# Avropa İttifaqının regionda dinc inkişafa verəcəyi dəstək çox vacibdir

***Biz üç il əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını dəstəkləyən tərəfdaşlıq prioritetlərinə dair sənədi parafladıq. Bu, yeni hərtərəfli sazişin razılaşdırılması istiqamətində çox mühüm addım oldu.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



***Ötən ilin payızında başlamış, 44 gündə otuz illik münaqişəyə son qoymuş İkinci Qarabağ münaqişəsi regionda, sözün həqiqi mənasında, yeni reallıqlar yaratmışdır. Həmin faktın təsdiqi kimi xatırlatmalı olduğumuz məqamlar çox olsa da, bu yazıda ancaq şahidi olduğumuz məsələni yada salmaq istəyirik: Avropa İttifaqı 2020-ci il noyabrın 10-da Moskva, Bakı və İrəvanın razılığa gəldiyi nəticələri bəyənir və dəstəkləyir.***

Doğrudur, həmin tarixə qədərki yazılarımızda da "Avropa İttifaqı Şərq tərəfdaşlarının ərazi bütövlüyünə hörmətlə yanaşır" qənaətini dəfələrlə qələmə almışdıq. Ancaq indi vəziyyət daha da konkretləşdiyinə görə Aİ – Azərbaycan əməkdaşlığı yeni müstəvidə, yeni məzmunda və təbii ki, yeni reallıqlara uyğun olaraq davam etdirilir. Yəqin ki, heç kəsin yadından çıxçayıb, bu il mayın 20-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda keçirilən müzakirələr zamanı Azərbaycan Prezidenti İlham Əliyev demişdi ki, Avropa İttifaqı hər zaman Azərbaycanın yaxşı tərəfdaşı olub: "Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Əsas ixracımız Avropa İttifaqının üzv ölkələri ilə bağlıdır və üzv dövlətlərin üçdəbir hissəsi ilə Azərbaycan Strateji Tərəfdaşlıq adlanan sənədləri və bəyannamələri imzalamışdır və ya qəbul etmişdir. Hesab edirəm ki, Azərbaycan lap əvvəlcədən qoşulduğu "Şərq tərəfdaşlığı"na üzv ölkələr arasında bu mövqedə olan yeganə ölkədir".

Həmin tədbirdən, təxminən, bir ay sonra – iyunun 25-də Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozef Borelin mandatı əsasında Azərbaycana səfər edən Rumıniyanın Xarici İşlər naziri Boqdan Aureskunu, Avstriyanın Xarici İşlər naziri Aleksandr Şallenberqi, Litvanın Xarici İşlər naziri Qabrielius Landsbergisi və Avropa İttifaqının nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev Avropa İttifaqından Azərbaycana gələn belə böyük nümayəndə heyətini görməkdən şad olduğunu demiş və xatırlatmışdı ki, bu, bizim əməkdaşlığımızın, Avropa İttifaqı və onun üzvlərinin regional məsələlərə cəlb olunmasının yaxşı göstəricisidir: "Mən başa düşdüyüm qədərilə sizin regiona səfəriniz Ermənistanla Azərbaycan arasında münaqişədən sonra yaranmış hazırkı vəziyyətə həsr olunub. Başqa sözlə desək, postmünaqişə vəziyyəti əhəmiyyət kəsb edir, çünki düşünürəm ki, indi – bu il və gələn il ərzində postmünaqişə vəziyyəti ilə bağlı əsas fundamental yanaşmalar işlənib hazırlanacaq. Azərbaycanın mövqeyi çox açıq və aydındır".

Azərbaycan Prezidenti xüsusilə yada salmışdı ki, biz postmüharibə vəziyyətindən Cənubi Qafqazda sülhməramlı inkişafa və əməkdaşlığa keçmək istəyirik. Əfsuslar olsun ki, biz indiyədək Ermənistan hökumətindən buna bənzər nə isə eşitməmişik: "Əlbəttə, düşünürəm ki, sizin Ermənistanda təmaslarınız zamanı bu məsələ də müzakirə ediləcək. Çünki əgər bizim Ermənistanla sülh sazişimiz olmasa, bu, o deməkdir ki, sülh də yoxdur. Təkcə iki ölkə arasında deyil, həm də Cənubi Qafqazda sülh yoxdur. Bizə sülh və dayanıqlı inkişaf, proqnozlaşdırılma, sıfır müharibə riski lazımdır, bizə müharibə lazım deyil. Bizə əvvəl də müharibə lazım deyildi".

Yəni Azərbaycan Prezidenti Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozef Borelin mandatı əsasında Azərbaycana səfər edən nümayəndə heyətinə xatırladırdı ki, Ermənistanın tutduğu mövqe Avropa İttifaqının bu regionda sülh və əməkdaşlıq yaratmaq cəhdlərinin qarşısında əngəldir. Ancaq süni və cılız bir əngəl.

Ermənistanın Azərbaycan – Avropa İttifaqı münasibətlərinə və Avropa İttifaqının Qafqazdakı siyasətinə əngəl törətmək, mane olmaq cəhdləri iyulun 18-də növbəti dəfə "suya düşdü". Belə ki, həmin gün geniş tərkibdə görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin birgə mətbuat konfransında cənab Mişel nəinki "status" ifadəsini işlətmədi, hətta "Dağlıq Qarabağ münaqişəsi" də "yadına düşmədi". Halbuki, ermənilər İrəvanda onun qulağına çox nağıllar danışmışdılar.

Azərbaycan Prezidenti isə Ermənistanda mövcud olan revanşist əhval-ruhiyyəni yada salmazdan əvvəl xatırladı ki, Avropa İttifaqı – Azərbaycan danışıqlarına aid gündəliyin mühüm hissəsi, sözsüz ki, enerji təhlükəsizliyi ilə bağlıdır: "Burada biz yalnız böyük nailiyyətləri, mən deyərdim ki, tarixi nailiyyətləri, xüsusilə Cənub Qaz Dəhlizi layihəsinin tamamlanmasını qeyd edə bilərik. Ötən ilin sonuncu günündə, həqiqətən də, tarixi əhəmiyyət kəsb edən hadisə baş verdi. Cənub Qaz Dəhlizinin sonuncu – dördüncü seqmenti olan Trans-Adriatik kəməri artıq istismara verilib. Yanvarın 1-dən bu günədək Azərbaycandan Avropa İttifaqına üzv dövlətlərə, xüsusilə İtaliya, Yunanıstan və Bolqarıstana 3 milyard kubmetrdən çox təbii qaz ixrac olunub. Əlbəttə ki, Avropa bazarına ixrac olunacaq təbii qazın həcmi artacaq".

Cənab Mişelin Bakıdakı görüşlərdə və xüsusən, mətbuat konfransında İrəvanda arzulanan məcrada danışmadığını görən ermənilər növbəti dəfə öz xislətlərini ortaya qoymuşdular: "Şarl Mişel ermənilərin maraqlarını Bakının qaz kəmərinə satdı". Ermənilərin bu həyasız və şərəfsiz şantajına Avropa İttifaqının cavab verib vermədiyini bilməsəm də, türk jurnalist Əhməd Ərdəmin cavabı yadımdadır: "Azərbaycan Avropadan daha çox Ermənistana yaxındır və İrəvanda kiminsə ağlı başında olsaydı, qonşulara qarşı ərazi iddiaları ilə deyil, Bakının neft-qazından bəhrələnmək təşəbbüsü ilə çıxış edərdi. Etməyiblərsə, Mişelin nə günahı?"

İnanırıq ki, Prezident İlham Əliyevin Şarl Mişellə birlikdə təşkil olunan mətbuat konfransında söylədiyi növbəti fikirlər İrəvanı Aİ rəsmisinin çıxışından daha çox "yandırıb": "Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir. Biz Avropa İttifaqı ilə birlikdə uzun illərdir Cənub Qaz Dəhlizi Məşvərət Şurasına sədrlik edirik. Avropa İttifaqı və Azərbaycanın rəhbərliyi altında Məşvərət Şurası, həmçinin bu layihənin uğurla həyata keçirilməsinin mühüm amili olub. 3500 kilometr uzunluğunda inteqrə olunmuş kəmər sistemi və nəhəng "Şahdəniz-2" qaz yataqlarının işlənməsi ölkələr, şirkətlər və beynəlxalq maliyyə institutları arasında əməkdaşlığın nadir təcrübəsidir. Cənub Qaz Dəhlizi layihəsinə yatırılmış ümumi investisiyaların həcmi 33 milyard ABŞ dollarından çoxdur. Eyni zamanda, uzun illərdir – artıq 15 ildir ki, Azərbaycan Avropa istehlakçılarının etibarlı xam neft təchizatçısıdır".

Bəli, müstəqil Azərbaycan artıq 15 ildir ki, Avropa istehlakçılarının etibarlı xam neft təchizatçısıdır. "Müstəqil" Ermənistan isə 30 ildir ki, nəinki Avropanın, hətta dünyanın hər yerindəki "sponsor"larının boğazına sancılmış ilan sümüyüdür. Udmaq qeyri-mümkündür, rədd eləməyi bacarmalıdırlar.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***